S Ə N Ə T Ş Ü N A S L I Q

UOT: 31.

**Səbahəd Məlikova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: sebahedmelikova@gmail.com**

## İNSAN ALVERİ QURBANLARI İLƏ APARILAN SOSİAL İŞ

İnsan alverinin qurbanı olmuş şəxslərin azad olduqdan sonra cəmiyyətə reinteqrasiyası prosesi onlarla davamlı sosial, psixoloji işin aparılmasını tələb edir. Bu zaman sosial işçilər başlıca kömək subyektinə çevrilirlər. Lakin bu qrup insanlarla aparılan iş müxtəlif istiqamətli kompleks fəaliyyət tələb edir. Belə ki, sosial işçilərlə yanaşı onların ailələri, daxil olduqları sosial mühit, ən nəhayət cəmiyyət və dövlət bu prosesdə yardımçı qüvvələr kimi çıxış edirlər. Bu fəaliyyət insan alveri qurbanının mövcud psixoloji və sosial vəziyyətini nəzərə almağı nəzərdə tutur.

Sosial işçilər insan alverinin qurbanı olmuş şəxslərin hüquqlarının həyata keçirilməsi və müdafiəsinə kömək edərək onların layiqli həyata qayıtması istiqamətində fəaliyyət göstərirlər. Qurbanların reabilitasiyası onların öz qabiliyyətlərinə inanmasını, yenidən sosial inteqrasiya üçün səriştələrinin inkişafını tələb edir. Sosial işçilər insan alveri qurbanının hüquqlarına riayət edilməsi, onların hüquqlarının müdafiəsi, bu hüquqların pozulmasının qarşısının alınmasına çalışırlar. Sosial işçilər ilk növbədə insan alveri qurbanlarının şəxsi bacarıqlarının və mənəvi-iradi keyfiyyətlərinin inkişafına çalışır, onları müstəqil fəaliyyət göstərməyə və həyatlarında indi baş verənlərə görə məsuliyyət daşımağa sövq edir; insan alveri qurbanı ilə onun yaşadığı sosial mühit arasında qarşılıqlı dəstək əlaqəsinin yaradılmasına köməklik göstərirlər.

İnsan alveri qurbanlarının reabilitasiyası dedikdə, onların fiziki sağlamlıqlarının və psixoloji tarazlıqlarının bərpasına yönələn kompleks tədbirlər nəzərdə tutulur.

İnsan alveri qurbanlarının reinteqrasiyası isə insan alveri qurbanların yenidən cəmiyyətə, öz ailələrinə və aid olduqları sosial mühitə qaytarılmasına və

qəbul etdirilməsinə yönəlir. Reinteqrasiya prosesi bir sıra psixoloji, sosial-iqtisadi, sosial-siyasi və mədəni istiqamətli fəaliyyətlər məcmusunu ehtiva edir. İnsan alveri qurbanları müxtəlif demoqrafik qruplara aid olan insanlardırlar, buraya əsasən həssas təbəqəyə aid olan işsiz, kasıb gənclər və orta yaşlı əhali daxil olur. Onu da nəzərə almaq lazımdır ki, ailə üzvlərindən birinin insan alverinin qurbanına çevrilməsi bütövlükdə ailənin faciəsi olaraq qəbul edilir. Bir tərəfdən qurbana çevrilmiş şəxslə bağlı narahatlıqlar, digər tərəfdən isə sosial qınaq onların sosial təcridolunması ilə bağlı çətinliklərlə üzləşməsinə səbəb olur. Bəzən bu problemlərin dərinliyi və miqyası sosial işçilərlə yanaşı, digər dövlət qurumlarının və QHT-lərinin da işə qarışmasını zəruri edir.

Sosial işçi insan alveri qurbanlarına kömək etmək üçün aşağıdakı istiqamətdə fəaliyyət göstərə bilər: "Söhbətə icazə verməklə kömək təklif edin, Benefisiarı diqqətlə dinləyin, mühakimə etməyin və ya həddən artıq maraq göstərməyin. Benefisiar öz fikirlərini və emosiyalarını paylaşsın. Ona qarşı istifadə edilən zorakılığın təfərrüatlarını söyləməsini və "bütün suallarınıza cavab" alacağınızı gözləməyin; "çaşdırıcı anlar" axtarmayın, hekayənin istiqamətini və gedişatını benefisiar seçsin; benefisiara onun dediklərinə inandığınızı göstərin: benefisiara dediyiniz hər şeyə inandığınızı söyləsəniz və ya heç olmasa onu göstərsəniz, ona hörmətlə yanaşdığını hiss etməsinə kömək edəcəksiniz və o, özünüzü əmin hiss edəcək. Bu, benefisiarın etibarını inkişaf etdirmək üçün ilk addımdır".

Nəzərə almaq lazımdır ki, insan alverinin qurbanları aldatma və məyusluq mühitindən ayrılıblar, onların fərdilik və özünə inam hissi son dərəcə aşağıdır və vəziyyətə adekvat reaksiya verə bilmirlər. Yaşadıqları bədbəxtlik onların insanlara olan inamının itirilməsinə səbəb olmuşdur və bununla əlaqədar olaraq impulsiv qərarlar verməyə meyllidirlər. Xüsusilə insan alverinin qurbanı olan şəxslər sosial işçilərin köməyinə şübhə ilə yanaşır, qəbul etmək istəmir, aqressiya nümayiş etdirirlər. Belə bir vəziyyətdə sosial işçi benefisiara təzyiq göstərməməli, onun qərarlarına hörmətlə yanaşaraq prosesi başlamamalı, yaxud dayandırmalıdır. Əgər benefisiar köməyi qəbul etməyə tərəddüd edirsə, bu zaman onun inamını qazanmağa, qərar verməkdə köməklik göstərməyə çalışmaq lazımdır. Bu qərarı verməklə insan alverinin qurbanı olmuş şəxs ilk psixoloji baryeri aşa bilir və onun özünə inamı istiqamətində ilk addım atılmış olur. Bu mənada təbəqədən olan insanlarla sosial iş zamanı aşağıdakı əsas prinsiplər nəzərə alınmalıdır:

– İnsan alveri qurbanlarının yardım proqramlarında könüllü iştirakı, yəni qurbanlar göstərilən xidmətləri qəbul etmək və ya imtina etməkdə sərbəstdirlər;

– İnsan hüquqlarına hörmət və müdafiə;

– Anonimlik və məxfilik;

– Qurbanların problemlərinin həllinə fərdi yanaşma.

Sosial işçi insan alveri qurbanlarına yardım edərkən onun ehtiyaclarından çıxış etmək, onu ittiham etməmək, yaşından, milliyyətindən, maddi rifahından, psixi sağlamlığından, təhsilindən və s. asılı olmayaraq yardım təklif etmək, onun ailəsi ilə əməkdaşlıq etmək başlıca şərtlərdir.

**Ədəbiyyat siyahısı:**

1. UNODC, “Global Report on Trafficking inPersons2018”, New York 2018, s.10

2. Bayer C.Human Trafficking-Modern day slavery // in: Mediterranean Journal of Human Rights, 2004, vol,14, p.953-972. Pdf

3. Salt J.Trafficking and Human Smuggling: A European Perspective//In: International Migration, 2000, vol.38/3, Special Issue I, p. 31-56

**Tezisin redaksiyaya daxil olma tarixi: 09. 01. 2022**

**Tezisi çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**